# Estoniya mətbuatı ABŞ Dövlət katibinin Prezident İlham Əliyevlə telefon danışığından yazıb

**Baltikyanı ölkələrdə fəaliyyət göstərən nüfuzlu DELFI Media Qrupunun Estoniyadakı internet-nəşri ABŞ Dövlət katibi Entoni Blinkenin Prezident İlham Əliyevə zəng etməsi ilə əlaqədar məqalə yayımlayıb.**




Səfirlikdən AZƏRTAC-a bildirilib ki, "Əliyev: Azərbaycan ABŞ ilə ikitərəfli əlaqələrin inkişafında maraqlıdır" sərlövhəsi ilə dərc olunmuş məqalə geniş oxuyucu kütləsində maraq doğurub.

Məqalədə aprelin 5-də ABŞ, Avropa İttifaqı və Ermənistan arasındakı üçtərəfli görüşün qeyri-şəffaf hazırlanması, qeyri-inklüziv xarakter daşıması və Azərbaycanın haqlı iradlarına baxmayaraq təxirə salınmaması, anti-Azərbaycan mahiyyəti daşıyan addımların atılması, Azərbaycanın 2022-ci ildə Praqa görüşü zamanı qəbul edilmiş bəyanata və Alma-Ata Bəyanatına sadiq olduğu, Qərbdə Azərbaycanın Ermənistana hücum etmək niyyəti barədə səsləndirilən ittihamların tamamilə əsassız olduğu və digər vacib məsələlər haqqında dövlətimizin başçısının söylədikləri ətraflı şəkildə şərh edilib.

---

Azərbaycan.- 2024.- 6 aprel, № 71.- S.7.